*Bu gün əminliklə söyləmək olar ki, Azərbaycanın dövlət suverenliyi və iqtisadi müstəqilliyi, sistemli şəkildə artan xarici iqtisadi əlaqələri, dünya iqtisadiyyatına get-gedə daha dərindən inteqrasiya olunması hələ 1970 – 1985-ci illərdə təməli qoyulmuş xalq təsərrüfatı potensialına əsaslanır.*

**Ümummilli lider Heydər Əliyevin 2000-ci il dekabrın 29-da yeni əsr və üçüncü minillik münasibətilə Azərbaycan xalqına müraciətindən**

*SSRİ dönəmində Azərbaycanın iqtisadiyyatının, elm və mədəniyyətinin inkişafına, milli kadrların yetişdirilməsinə böyük səylər qoyan Heydər Əliyev nə vaxtsa ölkəmizin müstəqil olacağına inanırdı. Təbii ki, o zamanlar bütün bu işlər görülməsəydi, müstəqil dövlət quruculuğu vəzifəsinin həyata keçirilməsi çox ciddi çətinliklərlə qarşılaşardı.*

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**



# Heydər Əliyev epoxasının başlandığı gün

**Türk dünyasının görkəmli elm və ictimai xadimlərindən olan doktor İhsan Doğramacı Azərbaycan və ulu öndərimiz barədə olan söhbətlərindən birində demişdi ki, oxuduğum mətbuat vasitələrinin, çox təəssüf ki, hətta bir neçə siyasətçinin də Heydər Əliyev barədə olan bəzi mülahizələrini eşidəndə heyrətlənirəm: "Çünki bir çox adamlar türk tarixinin bu böyük simasının siyasi fəaliyyəti barədə danışarkən onun Naxçıvanın düşmən əlinə keçməsinə imkan verməməsini, 1993-cü ilin yayında Bakıya qayıdandan sonra vətəndaş müharibəsinin qarşısını almasını, gənc müstəqil dövlətə qurtuluş gətirməsini deməklə kifayətlənirlər. Amma Heydər Əliyevin siyasi fəaliyyətinin ən möhtəşəm illəri sovet dönəmində Azərbaycan xalqına xidmət etməsi, heç nədən qorxmadan türk təəssübkeşliyi etməsi idi. Heydər Əliyevin həmin dövrdəki uğurlarının titanik siyasi fəaliyyət olduğunu hamı bilməlidir."**

Doktor bu qənaətlərində tamamilə haqlı idi. Çünki Heydər Əliyev Azərbaycana birinci rəhbərliyi dövründə öz şəxsi nüfuzu hesabına respublikamızın sürətlə inkişafı üçün çox şey etmişdi. O, Moskvada, SSRİ Nazirlər Soveti Sədrinin birinci müavini vəzifəsində işləyərkən isə Qazaxıstan Respublikasına milli kadrın deyil, başqa millətin nümayəndəsinin rəhbər vəzifəyə göndərilməsinə açıq etiraz etmiş, Sov. İKP MK-nın Baş katibi Mixail Qorbaçova bunun yolverilməz olduğunu demişdi. O zaman bu şəkildə türk təəssübkeşliyi etmək kifayət qədər təhlükəli olsa da, Heydər Əliyev heç nədən çəkinməmişdi.

Xatırladım ki, Azərbaycan və Türkiyə prezidentlərinin bu il iyunun 15-də Şuşada Müttəfiqlik Bəyannaməsi imzalamasından sonra bir türk ziyalısı ilə söhbətdə mən bu faktı yada salmışdım və həmsöhbətim Heydər Əliyevin Süleyman Dəmirəllə təmaslarının da məhz həmin illərdə başlandığını əlavə etmişdi. Yəni doktor İhsan Doğramacının ulu öndərimiz haqqında söylədikləri sırf həqiqət olduğuna görə heç kəsin yadından çıxmır və çıxmayacaq.

Bu yazıda məhz həmin siyasi fəaliyyətin başlamasına zəmin yaratmış tarixin – Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin 14 iyul 1969-cu il tarixli plenumunda gündəliyə çıxarılmış və yekdilliklə bəyənilmiş kadr məsələsinin – bir çox sahələr üzrə ittifaq miqyasında ən geridə qalan Azərbaycan Respublikasına yeni rəhbərin seçilməsinin növbəti ildönümünü xatırladırıq.

Tarixçilərin fikrincə, həmin gün ölkəmizin çoxəsrlik dövlətçilik tarixində Heydər Əliyev epoxasının başlandığı gün idi. İqtisadçılar həmin günü ölkədə xalq təsərrüfatının heç zaman olmayan sürətlə inkişafının təməlinin qoyulduğu gün kimi qeyd edirlər. Təhsil, səhiyyə, mədəniyyət sahəsində çalışanların da bir çoxu həmin tarixi özünəməxsus şəkildə qiymətləndirmişdir. Ancaq siyasətçilər 1969-cu ilin 14 iyulunu nə zamansa adını eşidəcəyimiz müstəqil Azərbaycan dövlətinin yaradılmasına çalışan uzaqgörən siyasətçinin sükan arxasına keçdiyi gün kimi qiymətləndirirlər. Doğrudur, Heydər Əliyev həmin günə qədər də Azərbaycan xalqına misilsiz xidmətlər göstərmişdi. Ancaq iyulun 14-də onun fəaliyyət arenası qat-qat artmış və xidmətinin coğrafiyası daha böyük miqyas almışdı.

Dərslik müəllifləri yazırlar ki, həmin tarix Azərbaycanın xilasının birinci mərhələsi, xalqın özünə qayıdış tarixidir. Dünya şöhrətli siyasi xadim öz müdrik fəaliyyəti ilə müasir tariximizin ən şanlı və parlaq salnaməsini yaradıb. Milli azadlıq məfkurəmiz haqqında yazanlar qeyd edirlər ki, həmin gün milli özünüdərkin, soykökə qayıdışın başlanğıc dövrüdür. Çünki Azərbaycan xalqının şüurunda bu inqilabi dəyişikliyi məhz ulu öndərimiz yaradıb. Bu baxımdan, inamla demək olar ki, görkəmli dövlət xadiminin ölkəmizə rəhbərliyinin birinci dövrü, eyni zamanda, milli özünüdərkin oyanmasının, soykökə qayıdışın başlanğıc mərhələsidir. Onun bütün fəaliyyəti xalqın milli dirçəlişi, milli qürur hisslərinin oyanması ideyasına əsaslanırdı.

Başqa bir məqama diqqət yetirək. Prezidentin İşlər İdarəsinin nəzdində fəaliyyət göstərən Prezident kitabxanasının elektron resurslarında qeyd edilir ki, 1969-cu ildən başlayaraq Azərbaycan iqtisadiyyatının gücləndirilməsi Heydər Əliyevin siyasi xəttinin əsasını təşkil edirdi. Bildirilir ki, ötən əsrin 60-cı illərində ölkəmiz iqtisadi vəziyyətinə görə keçmiş SSRİ-də ən geridə qalmış respublikalardan biri idi. Ölkəmizin imkanları yetərincə olsa da, təbii sərvətlərimiz digər müttəfiq respublikaların inkişafına yönəldilir, Azərbaycan xalqı isə çətin vəziyyətdə yaşayırdı.

Tarixi sənədlərdən oxuyuruq ki, Heydər Əliyevin ilk rəhbərliyi dövründə Azərbaycanda 213 yeni iri sənaye müəssisəsi istismara verilib, dünyanın 65 ölkəsinə 350 adda məhsul ixrac olunub. Həmin dövrdə Azərbaycanın milli gəlirinin ümumi həcmi 2,5 dəfə artıb. Moskvanın, eləcə də, keçmiş SSRİ-nin digər şəhərlərinin 170 aparıcı elm və təhsil ocağına 10 mindən çox azərbaycanlı oğlan və qız təhsil almağa göndərilib. Bu, Heydər Əliyev siyasi müdrikliyinin və uzaqgörənliyinin göstəricisi idi.

Daim yada saldığımız 70-ci illərdə Bakıda, Naxçıvanda, Gəncədə, Mingəçevirdə, Lənkəranda, Xankəndidə birbirinin ardınca elektronika, elektrotexnika, radiotexnika, cihazqayırma, dəzgahqayırma... zavod və müəssisələri tikilib istifadəyə verilib. 1970-1982-ci illərdə Azərbaycanda tikilib istifadəyə verilmiş fabrik, zavod və digər sənaye-istehsal müəssisələrinin sayı əvvəlki 50 ildə tikilən müəssisələrin sayından qat-qat çox idi. Həmin illərdə görkəmli dövlət xadimi Heydər Əliyevin bilavasitə göstərişi və rəhbərliyi ilə Azərbaycanda 52 memarlıq abidəsində bərpa işləri aparılıb, 650-dən çox tarix və mədəniyyət abidəsinin pasportu hazırlanıb.

Bu qeydlərimi ulu öndərin yuxarıda adını çəkdiyimiz 2001-ci il, yeni əsr və üçüncü minillik münasibətilə Azərbaycan xalqına müraciətindən seçdiyimiz bir sitatla başa çatdırıram: "Azərbaycanın müasir tarixində 1969-cu ildə dönüş mərhələsinin təməli qoyuldu. Respublikanın dinamik inkişafı üçün kompleks proqramların işlənib hazırlanmasında yorulmaz fəaliyyət, misilsiz təşəbbüskarlıq və nəhəng enerji bütün 70-ci illərin bariz əlamətinə çevrildi. 1970-1985-ci illər Azərbaycanın quruculuq salnaməsinə ən parlaq səhifələr kimi daxil olmuşdur. Bu gün tam əminliklə söyləmək olar ki, Azərbaycanın dövlət suverenliyi və iqtisadi müstəqilliyi, sistemli şəkildə artan xarici iqtisadi əlaqələri, dünya iqtisadiyyatına get-gedə daha dərindən inteqrasiya olunması hələ 1970-1985-ci illərdə təməli qoyulmuş xalq təsərrüfatı potensialına əsaslanır... SSRİ dövlətinin dağılması ərəfəsində bir çox mütəxəssislər hansı müttəfiq respublikaların iqtisadiyyatının müstəqillik şəraitində özünü təmin etməyə qadir olduğunu müəyyən etməyə cəhd göstərdilər. Aparılan təhlillər göstərirdi ki, keçmiş SSRİ-də cəmi 2 respublika tam müstəqil olaraq öz iqtisadiyyatını idarə edə bilər. Bu respublikalardan biri məhz Azərbaycan idi".

***İttifaq MİRZƏBƏYLİ,***
***"Xalq qəzeti"***